Rza, Z. Azərbaycan Ordusu tarix yazdı / Zahid Rza // İki sahil. - 2021. - 5 noyabr. - № 203. - S. 16.

Qırx dörd günlük Vətən müharibəsində Prezident, Müzəffər Ali Baş Komandan, qətiyyətli sərkərdə İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Ordusu xalqımızın Zəfər salnaməsini yazdı. Silahlı Qüvvələrimizin döyüş hazırlığı, mənəvi-psixoloji ruhu, bölmələrimizin yüksək peşəkarlığı sayəsində Ermənistan ordusu darmadağın edildi. Azərbaycan Ordusu canı-qanı bahasına Ermənistan silahlı qüvvələrinin məğlubedilməzlik mifini qısa müddətdə dağıtdı, bütün qüvvələri xalqımızın iradəsi ilə hesablaşmağa vadar etdi, Qarabağ işğaldan azad edildi. Azərbaycanın ərazi bütövlüyü bərpa olundu, işğalçı ölkə kapitulyasiya aktını imzalamağa məcbur oldu.
Dövlətimizin başçısı 44 günün hər anını şanlı tariximiz adlandıraraq bildirib ki, Azərbaycan hər gün irəli gedirdi. Bu qırx dörd gün ərzində bir gün də olmamışdır ki, biz geri çəkiləк. Biz Ermənistanın 30 ilə yaxın müddət ərzində qurduğu istehkamları yararaq keçmişik. Bu istehkamlar elə qurulmuşdu ki, Azərbaycan oradan keçə bilməsin, əsgərimiz oradan keçə bilməsin. Eyni zamanda, Dağlıq Qarabağ ərazisinin coğrafi relyefi də Ermənistan tərəfi üçün daha əlverişli idi. Azərbaycan əsgər və zabitləri böyük qəhrəmanlıq, şücaət göstərərək şərəfli missiyanı yerinə yetirdi və öz doğma torpaqlarını işğalçılardan azad etdi. Azərbaycan Ordusu Vətən müharibəsində qazandığı tarixi Zəfərlə bir daha Cənubi Qafqazın ən güclü ordusu kimi, sülh və təhlükəsizliyin əsas təminatçısı olduğunu göstərdi.
Rəşadətli Azərbaycan Ordusunun 2020-ci il sentyabrın 27-də Qarabağda başladığı uğurlu əks-hücum əməliyyatı nəticəsində noyabrın 9-dək 5 şəhər, 4 qəsəbə və 286 kənd işğaldan azad edildi. Cəbrayıl şəhəri və rayonun 90 kəndi, Füzuli şəhəri və rayonun 53 kəndi, Zəngilan şəhəri, rayonun Mincivan, Ağbənd, Bartaz qəsəbələri və 52 kəndi, Xocavənd rayonunun Hadrut qəsəbəsi və 35 kəndi, Tərtər rayonunun 3 kəndi, Qubadlı şəhəri və rayonun 41 kəndi, Xocalı rayonunun 9 kəndi, Şuşa şəhəri, Laçın rayonunun 3 kəndi, həmçinin Ağdərə və Murovdağ istiqamətlərində bir neçə strateji yüksəklik, Zəngilanda isə Bartaz, Sığırt, Şükürataz yüksəklikləri və daha 5 adsız yüksəklik azad olundu. Xalq-iqtidar-ordu birliyi əsasında qazanılmış şanlı tarixi Zəfərimiz nəticəsində hazırda erməni faşistlərindən xilas edilən ərazilərimizdə Azərbaycanın üçrəngli bayrağı dalğalanır.
Bundan əvvəl, 2016-cı ilin aprel ayında Ermənistan silahlı qüvvələrinin təxribatlarına cavab olaraq Azərbaycan Ordusu sürətli əks-hücum əməliyyatı ilə düşməni ağır məğlubiyyətə uğratdı, Füzuli, Cəbrayıl və Ağdərə rayonlarının işğal altındakı ərazilərinin 2000 hektardan çox hissəsini azad etdi. Həmçinin minlərlə hektar ərazi Azərbaycan Ordusunun tam nəzarətinə keçdi. Bundan başqa, Naxçıvan əməliyyatı Azərbaycan Ordusunun gücünü, hərbçilərimizin rəşadət və cəsarətini düşmənə əyani surətdə nümayiş etdirdi. 1992-ci ildə erməni silahlı birləşmələri tərəfindən işğal edilən Şərur rayonunun Günnüt kəndi 26 ildən sonra – 2018-ci ilin may ayında ordumuz tərəfindən azad edildi. Qazanılan uğur Prezident, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev tərəfindən "Uğurlu Naxçıvan əməliyyatı" adlandırılıb.
Bəli, bu gün bütün dünya birmənalı qəbul edir ki, Azərbaycan İkinci Qarabağ savaşında XXI əsrin müharibəsini aparıb. İndi dünyanın ən güclü orduları Azərabycan Silahlı

Qüvvələrinin İkinci Qarabağ müharibəsindəki döyüş təcrübəsini öyrənirlər. Hazırda Azərbaycan Ordusu dünyanın 50 ən güclü ordusu sırasında yer tutur.
Bu gün ölkəmizin başçısının rəhbərliyi ilə ordu quruculuğu sahəsində mühüm addımlar atılır. İşğaldan azad edilmiş torpaqlarımızda yeni hərbi birləşmələr yaradılır və ən müasir hərbi texnikalarla təchiz edilir. Bütün hərbi hissələrin maddi-texniki bazasının möhkəmləndirilməsi istiqamətində ciddi işlər görülür. Ölkəmizin başçısı daim vurğulayır ki, ordu quruculuğuna bundan sonra da ciddi diqqət yetiriləcək. Hazırda bu istiqamətdə gərəkli addımlar atılır. Bu gün xalqımız, bütün dünya azərbaycanlıları haqlı olaraq Müzəffər Ali Baş Komandanımız və güclü, rəşadətli ordumuz ilə fəxr edir. Təcavüzkar Ermənistanın davamlı təxribatlarına cavab olaraq 2020-ci il sentyabrın 27-də “Dəmir yumruq” əməliyyatına başlayan və noyabrın 10-dək davam edən 44 günlük Vətən müharibəsi nəticəsində işğalçı ölkəni diz çökməyə, kapitulyasiyaya məcbur edən Silahlı Qüvvələrimiz dövlətimizin başçısının dediyi kimi, hər birimizin qürur mənbəyidir: “Bu gün hər bir Azərbaycan vətəndaşı haqlı olaraq Azərbaycan Ordusu ilə fəxr edə bilər və biz haqlı olaraq əsgərlərimizlə, zabitlərimizlə fəxr edirik”.